UOT:94.(479.24).

# AZƏRBAYCAN - GÜRCÜSTAN ARASINDA MEHRİBAN QONŞULUQ VƏ STRATEJİ TƏRƏFDAŞLIQ SİYASƏTİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ

***Mahmudov Asim Mahmud oğlu, Mahmudova Lyudmila Mahmud qızı***
***Gəncə Dövlət Universiteti***

**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf olunur**

**Xülasə:** *Ulu öndər Heydər Əliyevin dost Gürcüstana rəsmi səfər zamanıdediyi bu yenilməz fikirlər XXI əsrdə də, öz fenomenliyini itirməmişdir. "Biz, bir-birimizə and vermişik ki bu yolla gedəcəyik, bu yoldan dönməyəcəyik və ölkələrimizi – Azərbaycan və Gürcüstan nəyin bahasına olursa-olsun müstəqil, azad, suveren və çiçəklənən ölkələr edəcəyik..."*

**Acar sözlər**: müstəqil, rəsmi səfər, suveren, azadlıq.
**Ключевые слова**: независимый, официальный визит, суверинитет, свобода
**Key words**: independence , official visit, souvereign, liberty.

Cənubi Qafkazın ən qədim xalqları olan Azərbaycan və Gürcüstan əhalisi xoşbəxtdilər ki, milli azadlıq, dövlət müstəqilliyi əldə etmişlər. Dünya birliyinin tam hüquqlu üzvləri olmuşlar və bu yolda uğurla irəliləyirlər. Xalqlarımızın tarixi zəngindir. Hər iki xalq zəngin mədəniyyətə, özünəməxsus olan mehriban qonşuluq köklərinə malik olmaqla əsrlərin çətin sınaqlarına mərdliklə sinə gərərək gələcəyə nikbinliklə baxırlar. İndi, XX-ci əsrin sonlarında əldə etdiyimiz imkana – azad və müstəqil olmaq imkanına əvvəllər heç zaman malik olmamışıq. Xalqlarımız sıx mehriban və tərəfdaşlıq telləri ilə həmişə bağlı olmuşlar. Biz gürcü və azərbaycan xalqlarının qonşu kimi yaşadıqları bütün tarix ərzində onların dostluğunu sübut edən minlərlə faktı misal göstərə bilərik. Müdrik xalqımızın ən böyük nailiyyəti ondan ibarətdir ki, gürcülərlə azərbaycanlılar arasında heç zaman heç bir münaqişə, inciklik olmamışdır. Bu heyratamiz haldır. Ola bilsin ki, dünya miqyasında belə uğura nadir halda rast gəlinir.

Təbii ki, bütün bunlar gürcü və azərbaycan xalqlarının təbiəti, qəlbi ilə bağlıdır. Ona görə də əcdadlarımız bizə böyük bir sərvət – dostluq, şərəfli və səmimi qardaşlıq dostluğu irs qoymuşlar. Biz bir regionda, qonşuluqda yaşayaraq, bir-birimizi həmişə dəstəkləmişik və bir-birimizin uğurlarına sevinmişik. Bu hər iki qardaş xalqın ən yaxşı adamlarının yaratdıqları yenilməz tarixdir. Lakin indi biz ölkələrimizin, xalqlarımızın tarixinin yeni mərhələsindəyik - dövlət müstəqilliyi mərhələsindəyik. Bu müstəqilliyi və suverenliyi bizə tale bağlamışdır. Ancaq bu müstəqilliyi qoruyub saxlamaq, gələcəyə inamla aparmaq taleyin deyil, xalqların işidir və xalqların iradəsidir. əlbəttə, bu gün iş xeyli dərəcədə bu xalqların müdrik liderlərindən asılıdır.

Bu gün iftixar hissi ilə demək olar ki, bütün bu müstəqillik illəri ərzində Azərbaycan və Gürcüstan çox böyük çətinlikləri və maneələri, kənardan təzyiqi, ölkələrimiz daxilindəki ağır prosesləri, vətəndaş müharibəsini və bir çox hadisələri inamla dəf edərək Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan, Abxaz və Osetin münaqişələrindən keçərək ağır sınaqlardan çıxmaqla bir-birimizə dəstək olmağa çalışırıq. Bu gün biz həm Azərbaycanda, həm də Gürcüstanda müstəqillik və suverenlik barədə möhkəm mövqe tutaraq oz məsələlərimizi öz xalqımızın milli maneələri xeyrinə həll etməyimizə baxmayaraq, hələ də kənardan müxtəlif qüvvələrin çoxüzlü təzyiqlərinə məruz qalırıq. Daxili vəziyyəti sabitləşdirməyimiz hər iki xalqlar üçün çox böyük nailiyyətdir. Belə ki, ölkələrimizdə potensial şərait olmasa – biz isə belə şəraitin olmadığı dövrü yaşadıq - əgər sabitliyə nail olmasaydıq, onda, əlbəttə, biz sosial və iqtisadi məsələləri həll edə, hüquqi, demokratik, dünyəvi dövlət qura ,iqtisadi islahatlar apara, ölkələrimizin gələcək dinamik tərəqqisi və inkişafı üçün xarici sərmayə cəlb edə bilməzdik və gələcəkdə cəlb edə bilmərik. Yəni öz ölkələrimizin müstəqilliyi və suverenliyini möhkəmləndirməklə və daxili həyatla bağlı vəzifəmizin müəyyən bir hissəsini yerinə

yetirmişik. Amma, həm Azərbaycan, həm də Gürcüstan qarşısında hələ də həlli vacib olan bir çox problemlər qalmaqdadır.

Ulu öndər Heydər Əliyevin dost Gürcüstana rəsmi səfər zamanı dediyi bu yenilməz fikirlər XXI əsrdə də, öz fenomenliyini itirməmişdir. “Biz, bir-birimizə and vermişik ki, bu yolla gedəcəyik, bu yoldan dönməyəcəyik və ölkələrimizi – Azərbaycan və Gürcüstan nəyin bahasına olursa-olsun müstəqil, azad, suveren və çiçəklənən ölkələr edəcəyik. Biz bunu etdik...”

Bu yeni şəraitdə həyatın bütün sahələrində əməkdaşlığımızı şərtləndirən zamindir. Hzırda xalqlarımız və ölkələrimiz arasında mədəniyyət, təhsil, iqtisadiyyat sahələrində mövcud əlaqələr, digər gənc müstəqil ölkələr üçün bir örnəkdir. Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan qədim neft ölkəsi kimi tanınır. Hələ 150 il bundan qabaq ölkəmizdə - dünyada ilk dəfə olaraq sənaye üsulu ilə neft çıxarmağa başlanmışdır. Dənizdə ilk dəfə olaraq Azərbaycanda neft hasilatına başlanmışdır. Məhz müstəqillik şəraiti öz təbii sərvətlərimizin, öz taleyimizin sahibi olmadığımıza və öz məsələlərimizi özümüzün həll etməyimizə imkan vermişdir.

Bu asan olmamışdır. Biz, möhkəm iradə və xarakter nümayiş etdirərək istədiyimizə nail olduq. Xəzər dənizindəki “Çıraq”,”Azəri” və ”Günəşli” yataqlarının işlənməsi və neft hasilatı haqqında dünyanın 11 ən iri neft şirkəti ilə 1994-cü il sentyabrın 20-də 19 müqavilə imzalamışıq. Onu “Əsrin müqaviləsi” adlandırırlar. Bu məşhur Bakı-Tibilisi-Ceyhan ixrac boru kəməridir.

2019-cu ilin noyabında İstanbulda dünya əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinin təntənəli şəraitdə birgə sazişinin imzalanmasını tarixi bir qələbə hesab etmək olar. Lakin hələ də bəzi çətinliklər qalmaqda idi. Bu hər üç ölkənin ekspertlərinin görüşü zamanı ortalığa çıxan Gürcüstan üçün tariflər məsələsi idi. Layihədə müəyyənləşdirilmiş həmin mümkün tariflər üzrə - onlar Türkiyə, Gürcüstan və Azərbaycan ücün müvafiq sürətdə bölüşdürülür, - əlbətdə, Gürcüstan daha böyük tariflərə malik olmaq istəyirdi. Amma bunu haradan götürməli? Axı, tariflərin həddi müəyyənləşdirilib. Bu layihəni sərmayələşdirən şirkətlərin kiməsə daha çox tariflər verilməsi üçün əlavə vəsait ayırmaq niyyətləri yox idi. Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin atdığı müdrik bir addım bu çətinliyin qısa bir zamanda müsbət həllinə təkan verdi. Ulu öndərimiz demişkən: “... Biz dostuq, dostlar isə bir-birini dəstəkləməlidir. Xalqlarimız dostdurlar. Şevardnadze ilə Əliyev dost və qardaşdır. Məsələnin həlli yolu tapıldı. Azərbaycan öz tariflərini Gürcüstana güzəştə getməklə bu ən yaxşı halda həllini tapacaqdır. Biz bunu etdik. Azərbaycan xalqı bu neft kəmərinin müvəffəqiyyətlə işə salınması xatirinə bunu etdi. Bunu yalnız qardaşlar edə bilərlər. Biz isə qardaşıq. Gürcü və Azərbaycan xalqları əbədi olaraq qardaşdır və biz bu qardaşlıq münasibətlərini gələcək nəsillərə ötürəcəyik.”

Azərbaycan şərqdən gələn ipək yolunun üstündə yerləşir. Gürcüstan da bu İpək yolunun üstündədir, bu yol Azərbaycan vasitəsilə, Şərq ilə Qərbi birləşdirir. Azərbaycan Xəzər dənizində iri bir liman olaraq, Şərqdən Qərbə doğru gedən ipək yolu proqramının həyata keçirilməsi üçün strateji əhəmiyyətli qapı olduğu kimi, Gürcüstan da Qara dənizdəki limanları ilə Qərbi Şərqlə birləşdirən vacib bir qapıdır. Bir sözlə, ölkəmizin coğrafi mövqeyi – şükürlər olsun ki, Allah bizi bu reqiona sahib etmişdir.Bu gün Gürcüstanda təxminən yarım milyon azərbaycanlı yaşayır. Onlar öz vətənində, tarixi torpaqlarında yaşayırlar, onlar yerli əhalidir. Onlar burada məhz ona görə bərabər hüquqlu vətəndaşlar kimi yaşayırlar ki, burada insanlar arasında milli əlamətə görə fərq qoyulmur. Odur ki, Gürcüstanda yaşayan azərbaycanlılar əsrlər boyu dostluq və qardaşlıq şəraitində yan-yana yaşadıqlarına görə gürcü xalqına həmişə minnətdardırlar.

Əgər XX əsrin sonlarında Azərbaycan – Gürcüstan qardaş dövlətləri arasında mehriban qonşuluq, səmimi dostluq və strateji tərəfdaşlıq əlaqələrinin yaranması və daha da inkişafında Heydər Əliyev fenomeni əvəzsiz rol oynamışsa, XXI-əsrin ilk illərdən başlayaraq bu

ənənələrin daha yüksəlişində, Azərbaycan Respublikasının bu günki Prezidenti – ulu öndərin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin Titanik fəaliyyətinin nəticəsidir.

***Ədəbiyyat***

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir I-IV cildlər. Bakı 1997
2. Azərbaycan – Gürcüstan: dostluğumuz əbədidir. Bakı 1996
3. Şahbazov E. Heydər Əliyev və Azərbaycan neftinin inkişafı. Bakı 1997
4. GUÖAM hüdudlarını genişləndirir. Bakı 2000
5. Mirzəyev R. Əsrin müqaviləsindən başlanan yol. Bakı 2000
6. Qayıdış.1990 – 1993. Bakı 1996
7. Qətiyyətin təntənəsi. Bakı 1995

## ФЕНОМЕН ГЕЙДАРА АЛИЕВА В ПОЛИТИКЕ ДОБРОСОСЕДСТВА И СТРАТЕГИЧЕСКОГО ПАРТНЕРСТВА МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ГРУЗИЕЙ

***Асим Махмуд оглы Махмудов, Махмудова Людмила Махмуд кызы***

***Резюме***

Как говорил великий сын Азербайджана Гейдар Алиев во время своего официального визита в Грузию: « Мы поклялись друг другу, идти по этому пути , не сворачивая, и превратить наши страны в независимые, суверенные и прцветающие государства. Иэто мы сделали…»

## THE PHENOMENON OF HEYDAR ALIYEV IN POLITICS AND STRATEGICAL PARTNERSHIPBETWEEN AZERBAIJAN AND GEORGIA

***Makhmudov Asim Makhmud, Makhmudova Ludmila Makhmud***

***Summary***

Our grand leader Heydar Aliev, during his official visit to Georgia, said: “ We promise, that we will go by this high way, do not turn back and we will do Azerbaijan and Georgia free, independent, sovereign flourish countries. And we did it…”

***Rəyçi: t.ü.f.d. Əliyeva G.Ə.***
***Azərbaycan tarixi kafedrasının 10 mart 2023-cü il tarixli iclasın 09 saylı protokolu***
***Daxil olma tarixi 16 mart 2023-cü il***

**UOT:811.111.**

## İNGİLİS DİLİNDƏ CERUNDUN FUNKSİYALARI

***f. ü. f. d Bayramova Ülviyyə Yusif qızı, İbrahimova Nigar Fərman qızı***
***Gəncə Dövlət Universiteti***
**uviyab@list.ru**
**ragin9373@mail.ru**

**Xülasə**: *İngilis dilində feillər şəsxli və şəxssiz növə bölünür ki, sonuncu bölgü bəzən müasir ingilis dilində “verbals” da adlanır. Şəxssiz feillər və ya “verbals” şəxsli feillərdən fərqli olaraq şəxs, kəmiyyət və ya şəkil (mood) ifadə etmir. Buna görə də onlar cümlənin xəbəri kimi işlədilə bilmir.Feilin şəxsli formaları kimi şəxssiz formalarının da zaman və növ fərqlilikləri vardır. Lakin zaman xüsusiyyətləri şəxsli feillərdən əhəmiyyətli dərəcədə fərqlənir.Müasir ingilis dilində feillərin üç forması vardır: feili sifət (indiki zaman feili sifəti və keçmiş zaman feili sifəti, cerund və məsdər).*